## Qərəzsizlik bəyannaməsi

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu AZS ISO/IEC 17065-1:2021 Standartının (Uyğunluğun qiymətləndirilməsi Məhsullar, proseslər və xidmətlər üzrə sertifikatlaşdırma orqanlarına dair tələblər) 4.2.5-ci bəndinin və AZS ISO/IEC 17021-1:2021 Standartının (Uyğunluğun qiymətləndirilməsi - İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər) 5.2-ci bəndinin tələblərini nəzərə alaraq aşağıdakıları bəyan edir:

- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətlərində qərəzsizliyi qoruyacağını və ayrıseçkilik etməyəcəyini;
- Sertifikatlaşdırma xidmətlərinə müraciət edən bütün fiziki şəxslərə/təşkilatlara coğrafi mövqeyindən, illik gəlir göstəricilərindən, tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hallarda qərəzsiz və bərabər maliyyə siyasəti tətbiq edəcəyini;
- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətlərində qərəzsizlik prinsiplərinə tam əməl olunmasını təmin etmək məqsədilə təhlil edilmiş mümkün maraqlar toqquşması halında öz vəzifələrini tam şəkildə yerinə yetirəcəyini;
- İnstitutun həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətlərini, fəaliyyətlə əlaqəsi olan maraqlı tərəflərdən asılı olmadan həyata keçirəcəyini;
- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətlərində qərəzsizliyi təmin edərək maraq toqquşmalarına imkan vermədən və gizliliyin qorunması prinsipinə sadiq olaraq, şəffaflıqla, ayrıseçkilik etmədən, müstəqil və qərəzsiz sertifikalaşdırma qərarlarını tətbiq edərək milli/beynəlxalq standartların və qanunvericiliyin tələblərini yerinə yetirəcəyini;
- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətləri çərçivəsində iştirak edəcək hər bir personalın qeyri-obyektiv qiymətləndirmələr etməyəcəyini, müəssisələrə mənfi təsir göstərəcək hər hansı bir davranışdan çəkinəcəyini, qərəzsiz və müstəqil hərəkət edəcəyini;
- Sertifikatlaşdırma ilə bağlı bütün fəaliyyətlərdə iştirak edəcək personalın hər cür kommersiya, maliyyə və digər təzyiqlərdən uzaq, heç bir tərəfin təzyiqinə məruz qalmadan, ayrıseçkilik etmədən şəxsin/təşkilatların maraqlarını nəzərə almadan, obyektiv məlumatlara əsaslanan və etibarlı şəkildə xidmət göstərməsini təmin edəcəyini;
- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma xidmətlərindən əldə edilən məxfi məlumatların və mülkiyyət hüquqlarının qorunmasını təmin edəcəyini;
- Həyata keçirəcəyi bütün sertifikatlaşdırma fəaliyyətləri çərçivəsində qərar vermə prosesində bütün personala (daxili və xarici) heç bir müsbət və ya mənfi təsir göstərməyəcəyini, qərəzsizliyə təsir edəcək bir vəziyyət aşkar edilərsə, sertifikatlaşdırma prosesinin dayandırılmasını təmin edəcəyini;
- Qarşılıqlı münasibətlər qərəzsizliyin təmin olunması üçün qarşısı alınmaz təhlükə yaranacağı halda setifikatlaşdırmaya icazə verilməyəcəyini;
- İdarəetmə sisteminin sertifikatlaşdırması ilə məşğul olan digər təşkilatları sertifikatlaşdırmayacağını;

- Müştərinin idarəetmə sistemləri üzrə məsləhət xidmətlərinin göstərilməsində iştirak edən personal və rəhbər funksiyaları həyata keçirən şəxslərin auditlərə və ya digər sertifikatlaşdırma fəaliyyətlərinə cəlb olunmasına yol verilməyəcəyini;
- İnstitut tərəfdaşlarının sahib olduğu digər şirkətlər ilə maraqların toqquşmasına və qərəzsizliyə səbəb ola biləcək heç bir fəaliyyətlə məşğul olmayacağını.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu**
**publik hüquqi şəxsin**
**İdarə Heyətinin sədri** **Əli Nəbiyev**

____________________________
Tarix